*(Əvvəli ötən saylarımızda)*

**12 DEKABR 1976.** Bu gün V.İ.Lenin adına Mərkəzi şəhər kitabxanasının oxu zalında görkəmli yazıçı İsmayıl Şıxlının "Mənim rəqibim" kitabının müzakirəsi keçirildi.

Əvvəlcə filologiya elmləri doktoru, tənqidçi Xalid Əlimirzəyev İsmayıl Şıxlının yaradıcılığı və onun "Mənim rəqibim" kitabının bədii məziyyətləri haqqında geniş, dolğun, əhatəli çıxış etdi. Onun çıxışı zalda əyləşən ali məktəb tələbələri və gənc qələm dostlarımız tərəfindən böyük razılıqla qarşılandı.

Sonra məruzə xarakterli bu əsas çıxış ətrafında müzakirələr başlandı. Müzakirələrdə tanınmış qələm sahiblərindən Əzizə Cəfərzadə, Hüseyn Abbaszadə, Ənvər Yusifoğlu, Söhrab Tahir, Nurəddin Babayev, Firuz Sadıqzadə və tədbirin səbəbkarı İsmayıl Şıxlı iştirak edirdi. Onlar ayrı - ayrılıqda "Azərbaycan" jurnalının baş redaktoru, görkəmli yazıçı İsmayıl Şıxlının "Mənim rəqibim" kitabı haqqında öz ürək sözlərini söylədilər. Bundan sonra yaradıcı gənclərdən Səyavuş İsmayılov, Afaq Quliyeva və başqaları çıxış edərək həm də yazıçının "Dəli Kür" rom anının bədii-tatixi məziyyətlərindən söhbət açdılar. Çıxış edənlərin hər biri "Mənim rəqibim" kitabını geniş şəkildə təhlil etməyə çalışdı. Sonda İ.Şıxlı çıxış etdi və salonda əyləşənlərin bir sıra maraqlı suallarına cavab verdi. Ruhunda mehriban, səmimi yaradıcılıq atmosferinin bərqərar olması bu maraqlı tədbirin yüksək səviyyədə keçməsinə səbəb oldu.

lərlə xatırlatdığım kimi mən Bakı Avtomobil Ehtiyatı Hissələri zavodunda çilingər işləyirəm. Bu zavodda əsasən kənd təsərrüfatında işlədilən maşın və mexanizmlər üçün ehtiyat hissələri hazırlanır. Zavod çox zaman plan və göstəricilərdən geridə qalır, buraxılan məhsullrın xeyli hissəsi isə bir qayda olaraq yüksək keyfiyyət göstəricilərinə cavab vermir. Lakin son zamanlar bu məsələ müəssisə rəhbərliyinin narahatlığına səbəb olmuş, zavodda keyfiyyət və kəmiyyət uğrunda ümumi mübarizə kompaniyası başlamışdır. Plan və digər göstəricilər yüksəlmiş, zavodun üstünə qayıdan reklomasiyaların sayı azalıb yox dərəcəsinə enmişdir. Bununla belə, zavodda bir sıra ciddi nöqsanlar vardır ki, bu barədə narahat olmağa dəyər. Hər şeydən əvvəl onu qeyd etməliyəm ki, bəzi sexlər çox natəmizdir. Birinci və ikinci sexlərin döşəməsi çox çirkindir, sexlərə vaxtlı - vaxtında ağac yonqarı gətirilmir, axı, təmizlik məqsədi ilə sexlərə yonqar səpirlər. 1-ci sexin 203-cü sahəsində emulsiyalı su ilə işləyən yarımavtomat tokar dəzgahlarından bir neçəsi deşildlyi üçün su axıb yerə tökülür, lakin heç kəs bu haqda tədbir görmək istəmir. Zavod komsomol təşkilatının fəaliyyəti bərbad haldadır. Heç bir sexdə divar qəzetləri müntəzəm çıxmır, bəzi sexlərdə isə aylardan bəri divar qəzeti görən yoxdur. Sexlərdə komsomol iclasları təsadüfi hallarda keçirilir, sex komsoomol təşkilatı katibləri isə üzvlük haqqı toplamaqla öz vəzifələrini bitmiş hesab edirlər. Zavodun yeməkxanasında da vəziyyət yaxşı deyil. Əvvəllər ikinci növbə zamanı yeməkxanada isti xörək verilirdi, indi isə o da yoxdur. İkinci növbə zamanı bufetdə çox zaman köhnə kolbasadan, çörəkdən, peçenyedən və badımcan salatından başqa heç bir şey tapılmır. Şübhəsiz ki, bu cür aşağı səviyyəli qidalarla fəhlə dəzgah arxasında itirdiyi enerjinin yeriini doldura bilməz.

Acınacaqlı haldır ki, işlədiyim iki il ərzində zavodda bir dəfə də olsa əmək qəhrəmanları ilə, görkəmli elm və mədəniyyət xadimləri ilə işçilərin görüşü keçirilməyib. Bu məsələ ilə bağlı iradımı zavod həmkarlar ittifaqı təşkilatının sədri Ramiz Məmmədov yoldaşa bildirdim və qeyd etdim ki, bu tipli tədbirlərin keçirilməsində bundan sonra mən Sizə yardımçı ola bilərəm. O isə bu cür yaradıcı təşəbbüskarlığa açıq-aşkar öz mənfi münasibətini bildirdi.

Zavodda Cəbrayıl Cəbrayılov, Dədəkişi Eynullayev, Ələkbər Əliyev, Mirdavud Həsənov, Azad Məhərrəmov kimi hamının hörmətini qazanmış qabaqcıl işçilər çalışır. Onlar yüksək göstəricilər əldə etməklə yanaşı zavodun ictimai həyatında da fəal iştirak edirlər. Bununla belə, zavodda saysız-hesabsız irili- xırdalı nöqsanlar mövcuddur ki, cənab direktor Qulam Nağızadə bu nöqsanları aradan qaldırmaq barədə ciddi düşünməlidir.

# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

**15 DEKABR.** - Dünəndən havalar yaman soyuyub. İki gündür ki, vıyıltı ilə əsən külək ara vermək bilmir. Yataqxanadakı otağımda iki nəfər qalırıq. Səfərəliyev Teyfur bir aya yaxındır ki, zavoda işə düzəlib və onu bu otağa göndəriblər. Teyfur ilk günlərdən mənə sakit təbiətli, əliaçıq, ürəyiaçıq bir oğlan təsiri bağışlayırdı, lakin aradan günlər keçdikcə bu fikrimdə yanıldığımı başa düşdüm. Bu adamın təbiətində hansısa bir yaxşı cəhət axtarmaq qaranlıq otaqda qara pişik axtarmaq qədər çətindir. Bu adam pintidir, otaqdkı təmizliyin, səliqə-sahmanın qayğısına qalmır, xörək hazırlamaq, bazarlıq, alış-veriş kimi işlərlə ümumiyyətlə arası yoxdur. Əxlaqi cəhətdən bir qədər naqis olduğu üçün çoz vaxt eyni gündə ayrı-ayrı yerlərdə br neçə qızla görüşür. Məhz bu kimi keyfiyyətlərinə görə o, son vaxtlar yaman gözümdən düşüb. Heç ləyaqəti yerində olan normal adam da şəhvani ehtiraslarını təmin etmək naminə canlı insanlarla oyuncaq kimi, əşya parçası kimi rəftar edərmi?

Otağı bacardığım qədər cazibədar bir görkəmə salmağa çalışmışam. Dolabçaların üstünə qalın şüşə qoymaqla özümə qəşəng bir yazı stolu düzəltmişəm. Başımın üstündən Səməd Vurğunun, üzbəüz divardan isə Nəriman Nərimanovun iri portretlərini asmışam. Bir az aralıdan isə qabaqcıl işçi kimi rayon komsomol komitəsi tərəfindən verilmiş tərifnaməni asmışam. Pəncərənin qarşısına qoyulmuş iki dibçəkdən çıxan yaşıl sarmaşıqlar nazik iplər boyu otağın müxtəlif istiqamətlərinə tərəf uzanıb gedir. Divar tərəfdə qarşı-qarşıya iki çarpayı qoyulub, bunlardan biri mənim, digəri isə Teyfurundur. Yazı stolumla üzbəüz yemək stolu qoyulub. Otağımızın balkonu külək gələn tərəfə açılır. Balkonda mənim ştanqım var. Daşları dəyişməklə ştanqın çəkisini azaldıb-çoxaltmaq mümkündür. Bu ştanqın çəkisi kifayət qədər çoxdur, lakin mən hələlik 90 kilo qaldıra bilirəm. Təbii ki, ağır atlet kimi adsan qazanmaq fikrim yoxdur, ara-sıra özüm üçün intensiv məşqlər etməklə bədənimi möhkəmlətməyə, fiziki keyfiyyətlərimi zənginləşdirməyə çalışıram. Dəfə-



*(Davamı var)*

***Bayram AFURCALI***